# QHT Audit proqramı: Ətraf mühit – Bərpa üzrə İşçi qrupun hesabatı
## BP şirkətinin ümumi cavabı

BP şirkəti məmnunluq hissi ilə fürsətdən istifadə edərək, Ətraf Mühit Qrupuna BP/BTC/CQBK – ACİ QHT Audit proqramında iştirakına görə təşəkkür edir. Biz nəticələr cədvəlində daha spesifik, texniki və audit yönümlü cavablar verdiyimizə görə, bu ümumi cavab hesabatda çıxarılmış ümumi nəticələrə və qaldırılmış əsas məsələlərə BP və BTC/CQBK şirkətlərinin reaksiyasını bildirmək məqsədi daşıyır.

Boru kəmərinin tikintisi ərzində BTC/CQBK şirkətləri və onların tərəfdaşları tərəfindən landşaftın, torpağın, bitki örtüyünün və su hövzələrinin bərpa olunması ilə bağlı öhdəliklərinə necə əməl etdiklərini yoxlayarkən, QHT Audit qrupu ətraf mühitin diqqətlə qorunmasının mühüm əhəmiyyət kəsb etdiyini qeyd etmişdir. Həqiqətən də, Azərbaycanın təbii mühitinin qorunması və mühafizə olunmasını təmin etmədən, biz bu boru kəməri layihələrinin uğurlu olacağını düşünə bilməzdik. Buna görə də, Audit qrupunun hesabatında müsbət işlərin qeyd olunduğunu görmək bizi məmnun etmişdir. Əslində, qrup bir neçə vacib problemi qeyd etsə də, biz inanırıq ki, BP/BTC/CQBK və CCIC şirkətləri AGT boru Kəməri Dəhlizində dünya səviyyəli bərpa işləri həyata keçirirlər. Biz qrupun irəli sürdüyü səmərəli təklifləri alqışlayır və onlara iştiraka, dəyərli dialoqa və keçənilki töhfələrinə görə də təşəkkür edirik.

Audit qrupunun bərpa işlərinin icrasına dair təkliflərini görmək bizi məmnun etmişdir. Əlalxüsus da, qrup layihənin biomüxtəliflik proqramlarını ön plana çəkmiş, toxum materialının toplanması və yoxlanması və çay kəsişmələri ilə bağlı işləri (metodologiya, həyata keçirilmə, riskin idarə olunması) diqqətəlayiq işlər kimi vurğulamışdır. Biz qrupun qeydlərini yüksək qiymətləndiririk.

Audit qrupunun çıxardığı bir sıra nəticələr bizi məyus etmişdir və hesab edirik ki, onların çoxu yanlış izaholunmaya əsaslanmışdır. İdarəetmə sisteminin uyğunluğu (auditlərin təmin edilməsi daxil olmaqla), işçi heyətin biliyinin uyğunluğu, nadir növlərin qorunması və köçürülməsi, torpaq mülkiyyətçiləri ilə əlaqələrin saxlanması və s. kimi məsələlərlə bağlı audit nəticələri bizi təəccübləndirmişdir. Biz bu nəticələrin nə bizim işlərimizi, nə də qrupa təqdim edilmiş yetərli dəlilləri özündə əks etdirdiyinə inanırıq. Xahiş olunur, daha spesifik cavablar üçün nəticələr cədvəlinə baxasınız.

Ekoloji Audit qrupunun hesabatında nəqliyyat vasitələrinin Kəmər Dəhlizində hərəkəti qeyd olunur və qrup hesab edir bu, BTC/CQBK şirkətinin öhdəliyinə ziddir və "eroziyaya səbəb olan şum edilməsinin və boru kəməri dəhlizi yaxınlığında zərərin qarşısının alınması üçün bu marşrutdan avtomobil yolu kimi istifadə olunmasına icazə verilməməlidir."

Qrup diqqətlə müşahidə etmişdir ki, XDMX-nə (Xüsusi Dövlət Mühafizə Xidməti) məxsus nəqliyyat vasitələri audit aparılan ərazilərdə bərpa işləri başlandıqdan sonra boru kəməri boyunca hərəkət etmişlər. Bu məsələ BTC/CQBK Kəmər Dəhlizi sahəsinin uğurla bərpası prosesində üzləşdiyi əsas problemdir. Nəqliyyat vasitələrinin hərəkəti Ekoloji və Sosial idarəetmə Sistemi çərçivəsində Kəmər Dəhlizi Sahəsinin bərpa olunması ilə bağlı

öhdəliklərə tam riayət edilməsinə mane olur. Biz Azərbaycan hökumətinin boru kəmərlərinin təhlükəsizliyini təmin etmək arzusunu yüksək qiymətləndiririk. Bizim məqsədimiz hökumətlə birlikdə işləməkdir ki, bərpa işləri ilə bağlı öhdəliklərimizi yerinə yetirək və boru kəmərinin təhlükəsizliyini təmin edək.

Nəhayət, biz Ətraf Mühit Qrupuna göstərdiyi səylərə və verdiyi faydalı tövsiyələrə görə bir daha təşəkkür edirik. Biz ümidvar olduğumuzu bildiririk ki, onların Audit proqramında iştirakı səmərəli və faydalı olmuşdur.